KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 37 (372) 28 Noyabr, Çiriya paş - 4 Dekabr, Çileya pêş, sal, 2016
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymətİ: / Hêjaye: 40 qəpik




Səh. 2

## Prezident İlham Əliyev II Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisi ilə tanış olub



Səh. 5

## "Azərbaycan Kürdləri" ictimai birliyinin liderindən çağırış



Səh. 7

## Kürdüstan Prezidenti BBC Farsçaya danışdı: Kürdüstanın müstəqillik məsələsini heç bir güc dayandıra bilməz!



Səh. 3

## Gəncədə Aqrar-sənaye kompleksin inşası məqsədilə Memorandum imzalanıb



Səh. 12

## Li Enqereyê Nêçîrvan Barzanî û Binalî Yildirim rewşa herêmî nirxand



Səh. 9

## "Barışı dört duvar arasına alıp kilitlediler"



Səh. 8

## Şərəfli ömür yolu

İlyas Kürdoğlu Allahverdiyev

## Daşkəsən rayonunda "Ədliyyə işçilərinin peşə bayramı" günü qeyd edildi

Səh. 3

## Kartên Goranê ji dest diçin

Səh. 12

## BMT: Mosul uğrunda döyüşlər nəticəsində iraqlılar kütləvi şəkildə şəhəri tərk edir

Səh. 4

## Президент Курдистана: Защита освобожденных районов – следующая задача пешмерга

Səh. 14

## Seroka Barzanî paketa çareseriyê eşkere dike

Səh. 11

## Багдад увеличил зарплаты РПК в Синджаре

Səh. 16



Səh. 4

## Türkiyə suriyalı kürd siyasi liderin həbsini istəyir




Səh. 7

## Almaniyadan NATO-ya çağırış: Peşmərgəyə daha çox dəstək verməliyik



Səh. 10

## Nameya Profêssor Nadir Nadirov ji bo Serokê Heremê Kurdistanê Mesud Mistefa Barzanîra



Səh. 11

## Mehmûd Osman peyama serok Barzanî çawa wesif dike

# Prezident İlham Əliyev II Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisi ilə tanış olub

Bakı Ekspo Mərkəzində Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisi keçirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgi ilə tanış olublar. Əmlak Məsələləri Dövlət Komitəsi, “Elan Expo” və “Atılım Fuarcılık” şirkətlərinin təşkilatçılığı ilə keçirilən Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisində Azərbaycan ilə yanaşı, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Kipr, Ukrayna, İspaniya, Rusiya, Portuqaliya, Macarıstan və Lüksemburqdan 100-ə yaxın brend tikinti və inşaat layihələri nümayiş olunur.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov dövlətimizin başçısına komitənin stendi haqqında məlumat verdi. Burada son illərdə Azərbaycanda əmlak-torpaq idarəçiliyi və özəlləşdirmə sahəsində əldə olunan nailiyyətlər nümayiş etdirilir. Dövlətimizin başçısına Əmlak Məsələləri Dövlət Komitəsinin məhsulu olan Ünvan Reyestri İnformasiya Sisteminin məlumatları əsasında hazırlanmış ilk milli naviqasiya sistemi - AzNav barədə məlumat verildi. Naviqasiya sistemi iki komponentdən - Naviqasiya Proqramı və Naviqasiya Xəritəsindən ibarətdir. Həm onlayn, həm də oflayn rejimdə işləmək imkanlarına malik bu sistem Android, iOS, Windows CE əməliyyat sistemlərində olan bütün növ mobil cihazlarda, eyni zamanda, telefon və planşetlərdə çalışır. Naviqasiya sistemi Azərbaycan dili ilə yanaşı, ingilis, rus, alman, ərəb, türk, fransız, italyan və digər xarici dilləri də dəstəkləməklə çoxfunksiyalı imkanlara malikdir. Stenddə özəlləşdirmə prosesi, yaradılmış investisiya mühiti, daşınmaz əmlakın dövlət reyestri sahəsində innovasiyalar, əmlak xidmətləri üzrə elektron və onlayn imkanlar, ünvan-naviqasiya sistemi və digər iri layihələr barədə əyani məlumatlar çatdırılır. Həmçinin özəlləşdirmə prosesini daha optimal, rahat şəkildə həyata keçirmək üçün yaradılmış özəlləşdirmə portalında hərraca çıxarılan əmlaklar və onlara sifariş qaydaları, eləcə də hərrac prosedurları barədə məlumat verilir.

Sərgidə İspaniyanın CHG şirkəti də təmsil olunur. 1972-ci ildən fəaliyyət göstərən şirkət burada “OLİVA NOVA Beach and Golf Resort” layihəsini təqdim edir.

Sərgidə Portuqaliyanın “Mare Asset” şirkəti də öz layihələrini nümayiş etdirir.



Azərbaycan Prezidenti İlham Əliyev şirkətin stendi ilə tanış oldu.

Bildirildi ki, şirkət daşınmaz əmlakın idarə olunması ilə bağlı Avropa bazarında uğurla fəaliyyət göstərir. Şirkət, həmçinin Portuqaliyada daşınmaz əmlaka sahib olmaq istəyənlərin istiqamətləndirilməsi, sənədləşmə işinin təşkili və daşınmaz əmlakla bağlı digər məsələlər sahəsində də müştərilərə xidmətlər təklif edir.

Dövlətimizin başçısı “Onur Park Life” layihəsi ilə də tanış oldu.

Prezident İlham Əliyev “Bakı Ağ Şəhər” pavilyonuna da baxdı. Bu pavilyon maraq göstərilən stendlər sırasındadır. Bu, “Bakı Ağ Şəhər” layihəsinin 2011-ci ildə “Oil and Gas” sərgisindən sonra Azərbaycanda iştirak etdiyi ikinci sərgidir. Ağ Şəhərin 10 rayonundan 8-i tamamilə təmizlənərək, şəhər təsərrüfatında istifadə üçün yararlı vəziyyətə gətirilib. Beş il ərzində buradan 700 min kubmetr çirkli torpaq daşınaraq, ərazi tamamilə təmizlənib. “Fransız məhəlləsi” adı ilə tanınmış “Yaşıl Ada” rayonu ilk sakinlərini qəbul etməyə hazırlaşır. “Yaşıl Ada”da layihələndirilmiş Paris evlərinin tikintisi, habelə yol və kommunikasiya infrastrukturlarının inşası başa çatmaq üzrədir. Rayonun eksklüziv yaşayış kompleksi sayılan “Knightsbridge Residence”in tikintisinə də start verilib. Beş yaşayış binası, biznes mərkəzi və məktəbdən ibarət kompleksdə yaşıl zonalar da nəzərdə tutulub. Bu, son illərdə Bakıda şəhərsalma ilə bağlı həyata keçirilən ən mühüm və genişmiqyaslı layihədir. Layihənin reallaşdırılması nəticəsində dünyanın ən gözəl şəhərlərindən biri olan Bakının siması daha da müasirləşəcək.

Azərbaycanın daşınmaz əmlak sektorunun nəhənglərindən olan “Yeni Həyat” Şirkətlər Qrupu da sərgidə uğurla təmsil olunur. 2002-ci ildə yaradılan, öz ideyaları və novatorluğu ilə fərqlənən “Yeni Həyat” Azərbaycanın tikinti bazarında ən qabaqcıl şirkətlərdəndir. Şirkət Avropanın bir çox qurumları ilə əməkdaşlıq etməklə ən müasir texnologiyaların tətbiqində zəngin təcrübə qazanıb.

Dövlətimizin başçısı burada “AZİNKO HOLDİNQ” MMC şirkətinin stendi ilə də tanış oldu.

2006-cı ildən fəaliyyətə başlayan şirkətinin tərkibinə əsasən tikinti üzrə fəaliyyət göstərən firmalar daxildir. Yarandığı vaxtdan “AZİNKO HOLDİNQ” MMC otel və çoxmərtəbəli yaşayış binalarının, komplekslərin, ticarət və biznes mərkəzlərinin, xəstəxanaların, villaların və digər mülki obyektlərin tikintisi ilə məşğuldur.

Prezident İlham Əliyevə şirkət tərəfindən Bakıda inşa olunan 50 mərtəbəli iş mərkəzi barədə məlumat verildi. Bildirildi ki, binanın inşasına 2013-cü ildə başlanılıb. Hazırda 49-cu mərtəbənin inşası davam edir. Binanın gələn il istifadəyə verilməsi nəzərdə tutulur.

Regionda nümunəvi şəhərsalma layihəsi olan “AAAF Park” yaşayış kompleksi də sərgidə yeni layihələrini təqdim edir. Burada “Astara AAAF Park” və Gənclər şəhərciyi layihələri maraqla qarşılanır. Çoxfunksiyalı, müasir yaşayış binaları, ailəvi istirahət və uşaq əyləncə mərkəzləri, o cümlədən idman komplekslərinin birgə harmoniyasından ibarət “AAAF Park” yaşayış kompleksi ölkəmizin daşınmaz əmlak bazarının nəhənglərindən biri hesab edilir. Kompleksdə sakinlərin işlə təmini də nəzərdə tutulur. Şirkətin layihələri əsasən regionlarda inşa edilir və ilk layihə Xırdalan şəhərində reallaşdırılıb. Bu layihələrin bölgələrdə icra olunması ümumilikdə regionların sosial-iqtisadi inkişafına töhfələr verir.

“Asteco” şirkətinin stendi ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, əsası Dubayda qoyulan şirkət 30 ildən artıqdır fəaliyyət göstərir. Şirkətin Böyük Britaniyada, Fransada, Almaniyada, Türkiyədə, Rusiyada, Çində, Avstraliyada və digər ölkələrdə ofisləri fəaliyyət göstərir. Şirkət Azərbaycanda da fəaliyyətə başlamağı planlaşdırır. Yaşayış binalarının, iqamətgahların və ofislərin satışı ilə məşğul olan şirkət sərgidə dörd layihəsini təqdim edir. Bu layihələrin üçü Dubayda, biri Abu-Dabidə icra olunur. Şirkət beynəlxalq səviyyədə daşınmaz əmlak əldə etmək istəyənlərə xidmətlərini təklif edir.

Türkiyə sərgidə 5 şirkətlə təmsil olunur. Bunlar “Dövlət Daşınmaz Əmlak-Mənzil Müştərək İnvestisiya” MMC, həmçinin əmlak layihələrinin satışı şirkəti, “Tahincioğlu”, “Ağaoğlu” və “Özak” özəl şirkətlərdirlər. Şirkətlər yaşayış və inzibati binalarının tikintisi ilə məşğuldur. Bu şirkətlər sərgiyə Türkiyə Nazirlər Kabineti yanında Sosial Mənzil Baş İdarəsi tərəfindən cəlb olunub.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 330 hektarlıq ərazini əhatə edən “Dreamland”-“Xəyal Adası” yaşayış kompleksinin stendi ilə də tanış oldular.

“Xəyal Adası” yaşayış kompleksi şəhərkənarı sakitlik ilə müasir həyat tərzini özündə cəmləşdirir. Burada 394 müasir ev və fərqli zövqlərə uyğun olaraq inşa edilmiş 7 üslubda 234 villa mövcuddur. On bir süni gölün yaradıldığı və hektarlarla yaşıllıq zolaqlarının salındığı “Xəyal Adası” yaşayış kompleksi artıq növbəti ilin fevral ayında ilk sakinlərini qəbul edəcək. Burada həm də müasir “SABİS Sun” beynəlxalq məktəbi və müasir tələblərə cavab verən qolf sahəsi fəaliyyət göstərir. Üç yaşdan yuxarı uşaqlara ingilis dilində təhsil verən bu məktəb “Xəyal Adası” daxilində 67 min kvadratmetr sahəyə malik şəhərcikdə yerləşir. Şəhərciyin birinci mərhələsinə uşaq bağçaları və ibtidai məktəblər üçün akademik binalar, mini-gimnaziya və oyun meydançası daxildir. Noyabrın 24-dək davam edəcək bu mühüm sərgi həm yerli, həm də beynəlxalq müstəvidə daşınmaz əmlak sektoruna aid nüfuzlu şirkətləri, brend layihələri, potensial əmlak investorlarını Azərbaycanda vahid platformada toplayıb. ***president.az***

# Prezident İlham Əliyev Avropa Voleybol Konfederasiyasının prezidentini qəbul edib



Prezident İlham Əliyev Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar Boriçiçi qəbul edib. Bakıya birinci Avropa Oyunları zamanı səfərini xatırlayan qonaq Oyunların hətta Olimpiya Oyunlarından da yüksək səviyyədə keçirildiyini, ölkəmizə gələn xarici qonaqların buradan çox gözəl xatirələrlə ayrıldığını qeyd edərək, bu cür tədbirlərin keçirilməsinin Azərbaycanın gələcək inkişafı üçün gözəl bir investisiya olduğunu vurğuladı. 2017-ci ildə Bakıda qadınlar arasında Voleybol üzrə Avropa Çempionatının final mərhələsinin keçirilməsi barədə qərarın önəmini diqqətə çatdıran Aleksandar Boriçiç tədbirin ölkəmizdə uğurla təşkil ediləcəyinə ümidvar olduğunu dedi və bu işlərə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Azərbaycanda idmanın inkişafına böyük önəm verildiyini deyən Prezident İlham Əliyev bütün idman tədbirlərinin yüksək səviyyədə təşkili üçün ölkəmizin böyük səylər göstərdiyini vurğuladı. Bakıda keçirilən birinci Avropa Oyunlarının əhəmiyyətindən danışan dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz bu Oyunların Yay Olimpiya Oyunlarından da yüksək səviyyədə təşkilini qarşısına məqsəd qoymuşdu və buna nail oldu. Azərbaycan komandasının 2016-cı il Rio Olimpiya Oyunlarında medalların sayına görə dünya ölkələri arasında 15-ci yeri tutduğunu deyən dövlətimizin başçısı bunun böyük uğur olduğunu qeyd etdi. Ölkəmizdə idmanın təbliğinə, həmçinin müxtəlif beynəlxalq tədbirlərin təşkilinə böyük diqqət yetirildiyini vurğulayan Prezident İlham Əliyev qadınlar arasında Voleybol üzrə Avropa Çempionatının final mərhələsinin də Azərbaycanda uğurla keçiriləcəyinə, tədbirin mühüm beynəlxalq idman hadisəsinə çevriləcəyinə əminliyini ifadə etdi. ***president.az***

# Daşkəsən rayonunda "Ədliyyə işçilərinin peşə bayramı" günü qeyd edildi



Daşkəsən rayonunda Ədliyyə işçilərinin peşə bayramı münasibətilə tədbir keçirildi. Tədbirdə rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının rəhbərləri, məhkəmə işçiləri, ədliyyə qulluqçuları, ağsaqqallar və ziyalılar, rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

Tədbir iştirakçıları ilk öncə rayon mərkəzində ucaldılmış Ümummilli Liderimiz Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad etdilər.

Bundan sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxdılar.

Heydər Əliyev Mərkəzdə baş tutan tədbirdə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı cənab Əhəd Abıyev çıxış edərək məhkəmə və ədliyyə işçilərini peşə bayramı günü münasibətilə təbrik edərək bildirmişdir ki, Azərbaycanda ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsində qurulması üçün əsaslı tədbirlər həyata keçirildi, Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artdı, səlahiyyət dairəsi genişləndi. Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə 22 noyabr – 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün ədliyyə işçilərinin peşə bayramı günü kimi Ulu Öndər Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə həmin gün, yəni 22 noyabr tarixi ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən edilmişdir.

Həmçinin ədliyyə sisteminin inkişafında dövlətin diqqət və qayğısından danışan Əhəd Abıyev qeyd etmişdir ki, möhtərəm Prezident cənab İlham Əliyevin bu sahədə islahatların dərinləşdirilməsinə, ədliyyə işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına dair sərəncamları çoxsaylı ədliyyəçilər ordusu tərəfindən yüksək qiymətləndirilir. Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin yenidən Azərbaycanın dövlət başçısı seçilməsi ədliyyə orqanları işçilərinin böyük sevincinə səbəb olmuşdur. Bildirilmişdir ki, bu gün Azərbaycanda müşahidə olunan inkişaf ədliyyə orqanlarının fəaliyyətində də öz əksini tapmışdır. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən dinamik inkişaf, genişmiqyaslı quruculuq işləri, xarici siyasətdə əldə olunan uğurlar Azərbaycanı regionda lider dövlətə çevirmişdir.

Sonra Daşkəsən rayon Məhkəməsinin hakimi Tofiq Məmmədov çıxış edərək başda Azərbaycan Respublikasının Ədliyyə Naziri, Məhkəmə-Hüquq Şurasının Sədri Fikrət Məmmədov olmaqla, bütün ədliyyə işçilərini bu peşə bayramı günü münasibətilə təbrik etdi və işlərində yeni-yeni nailiyyətlər arzuladı. Hakim T.Məmmədov qeyd etdi ki, məhkəmə hakimiyyətinin yüksək statusu nəzərə alınaraq məhkəmə infrastrukturunun müasirləşdirilməsi istiqamətdə son illər böyük işlər görülüb. Ədliyyə işçiləri də ölkəmizin müasir inkişafına uyğun öz vəzifələrini layiqincə yerinə yetirmək, Dövlət başçısının ətrafında sıx birləşərək demokratik-hüquqi dövlət quruculuğu, Azərbaycan ədliyyəsinin davamlı inkişafı üçün bundan sonra da fədakarlıqla çalışmaq əzmindədirlər. Respublikada aparılan uğurlu məhkəmə-hüquq islahatları və ədliyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyi, qanunun aliliyinin təmin edilməsi ilə bağlı mütərəqqi hüquqi qanunvericilik bazasının yaradılması barədə geniş məlumat verən T.Məmmədov göstərilən bütün diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlığını bildirdi.

Tədbirdə iştirak edən rayon ictimaiyyəti nümayəndələri ədliyyə orqanları əməkdaşlarını peşə bayramı günü münasibətilə təbrik etdilər.

Tədbirin sonunda xatirə şəkli çəkildi.

# Zərdab rayonu ərazisində məskunlaşmış laçınlı məcburi köçkünlərlə görüş-səyyar qəbul keçirilmişdir



25 noyabr 2016-cı il tarixdə Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərlinin Zərdab rayonu ərazisində müvəqqəti məskunlaşmış laçınlı məcburi köçkünlərlə Texniki Peşə məktəbin binasında görüş-səyyar qəbulu keçirilmişdir.

Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli görüşdə çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda, eləcə də məcburi köçkünlərin məskunlaşdıqları ərazilərdə həyata keçirilən quruculuq və abadlıq işlərindən, həmçinin məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülmüş və görüləcək işlərdən danışaraq, əvvəlki illərdə olduğu kimi, 2016-cı ilin ötən dövründə də ölkəmizdə xeyli işlər görüldüyünü tədbir iştirakçılarının nəzərinə çatdırmışdır.

Qəbulda iştirak etmiş 40 nəfər rayon sakinindən, 8 nəfəri müraciət edərək əvvəlcə onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə öz minnətdarlıqlarını bildirmiş, həmçinin onlara əkin üçün torpaq sahəsinin ayrılması, elektrik enerjisi təchizatının yaxşılışdırılması, məcburi köçkün vəqiseqinin veilməsi habelə ailə vəziyyətləri ilə bağlı maddi köməklik olunmasını bildirmişlər. Sakinlər tərəfindən edilmiş müraciətlərə baxılması üçün aidiyyəti üzrə müvafiq tapşırıqlar verilərək, icrası nəzarətə götürülmüşdür.

Səyyar qəbulda Rayon İcra Hakimiyyətinin başçısı aparatının məsul işçiləri iştirak etmişlər.

# Sumqayıt Dövlət Dram Teatrının aktyorları ilə görüş keçirildi

Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıt Dövlət Dram Teatrının bir qrup əməkdaşı ilə görüşüb.

Zakir Fərəcov ölkə rəhbərliyinin xüsusi diqqəti və qayğısı nəticəsində qısa vaxt ərzində Sumqayıt şəhərində həyata keçirilən abadlıq-quruculuq işləri, sosial infrastruktur layihələri, o cümlədən mədəniyyət sahəsinin inkişafı istiqamətində görülən işlər, təşkil edilən tədbirlər haqqında görüş iştirakçılarına məlumat verib.

Qeyd olunub ki, son dövrlər Sumqayıt şəhərində həyata keçirilən layihələrin əksəriyyəti, Heydər Əliyev Mərkəzi, Musiqi Məktəbi, Poeziya Evi, eləcə də Sumqayıt Dövlət Dram Teatrının əsaslı təmir olunaraq istifadəyə verilməsi məhz şəhərin mədəni həyatını canlandırmağa hesablanıb.

Şəhər rəhbəri qeyd edib ki, gələcəkdə mərhələli şəkildə yeni kinoteatrlar, mədəniyyət ocaqları, musiqi məktəbləri tikilərək şəhər sakinlərinin istifadəsinə veriləcək.



Daha sonra icra başçısı Sumqayıt Dövlət Dram Teatrında 48-ci mövsümün açılışı zamanı təqdim olunan tamaşa barədə təəssüratlarını bölüşüb.

Sumqayıt Dövlət Dram Teatrının əməkdaşları çıxış edərək son dövrlər Sumqayıt şəhərində mədəniyyət sahəsinə göstərilən diqqət və qayğıya, yaradılmış yüksək şəraitə görə minnətdarlıqlarını ifadə ediblər.

# Gəncədə Aqrar-sənaye kompleksin inşası məqsədilə Memorandum imzalanıb

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Belarus nümayəndə heyətini qəbul edib. Şəhər rəhbəri qonaqları salamlayaraq Belarusiyaya ilk səfərindən və qonaqpərvərlikdən məmnun qaldığını bildirib.



Elmar Vəliyev Gəncə şəhərində 6 min hektar sahədə modern aqrar-sənaye kompleksin tikintisinə belaruslu mütəxəssislərin cəlb olunmasını bu sahənin inkişafına təkan verəcəyini bildirib. Belarusyanın Kənd Təsərrüfatı nazirinin birinci müavini Mariniç Leonid Adamoviç vurğulayıb ki, səfərin əsas məqsədi əməkdaşlığın növbəti mərhələlərini müzakirə etməkdir. Belarusiya Kənd Təsərufatı Nazirliyi və Gəncə şəhər İcra Hakimiyyətinin imzaladığı memarandum əsasən Gəncədə aqrar-sənaye kompleksi tikiləcək. 6 min hekdar ərazini əhateedəcək zavodun 2017-ci ildə tikilib təhvil verilməsi nəzərdə tutulub. Nazirin birinci müavini bildirib ki, layihənin icra ediləcəyi əzaridən torpaq nümunələri götürülərək onun məhsuldarlığı və kimyəvi elementləri yoxlanılacaq. Zavodda iri buynuzlu heyvanlardan alınan süddən yerli əhali və region əhalisi üçün süd və süd məhsulları istehsal olunacaq.

Kompleksin yaradılması ilə bağlı birgə əməkdaşlığa dair görüşün yekununda Memorandum imzalanıb. Memorandumu Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və Belarusiya Kənd Təsərrüfatı nazirinin birinci müavini Mariniç Leonid Adamoviç imzalayıb.

Sonda qarşılıqlı olaraq xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin Belarusiya Respublikasına işgüzar səfəri çərçivəsində kombinatın tikintisi ilə bağlı razılıq əldə olunub. İcra başçısını və rəhbərlik etdiyi nümayəndə heyətini Belarusun baş nazirinin müavinləri Mixail Rusıy və Vladimir Semaşko qəbul ediblər. Görüş zamanı Gəncə şəhərində aqrar-sənaye kompleksinin inşa olunması üçün birgə işçi qrupu yaradılıb.

## Kürd lider: "Kərkük və Sincardan çıxmayacağıq"

Peşmərgə qüvvələri İŞİD-dən azad etdiyi Kərkük və Sincar bölgəsindən əsla çəkilməyəcək. Bu sözləri Şimali İraq Kürd Regional Rəhbərliyinin lideri Məsud Bərzani "BBC Farsca"ya açıqlamasında deyib.



"Əməliyyatların 1-ci və 2-ci mərhələsi uğurla tamamlandı. Əvvəlcədən təxmin etdiyimiz kimi əməliyyat çətin keçdi. Əlbəttə ki, yaşayış sahələrində keçdikcə müəyyən ləngimələr olur. Çünki şəhər daxilində və xaricində əməliyyatlar bir-birindən fərqlənir. Ümumilikdə məsələ ilə bağlı müsbət fikirdəyik", - Bərzani bildirib. **Axar.az**

## İŞİD yenidən zəvvarlara hücum edib - 125 ölü

İŞİD terror qruplaşması İraqın Kərbəla şəhərindən, Məhəmməd peyğəmbərin nəvəsi imam Hüseynin qırx mərasimindən qayıdan şiə zəvvarların olduğu ərazidə partlayış törədib.

Partlayış Bağdaddan 100 kilometr aralıda yerləşən Hillada baş verib. Partlayış nəticəsində 125 nəfər ölüb, 100 nəfər yaralanıb. Onların çoxu iranlılardır. Partlayıcılarla dolu olan yük maşını partladılarkən ərazidə ziyarətdən qayıdan 5 avtobus olub.



Xatırladaq ki, iki gün öncə Bağdad yaxınlığında baş verən partlayış nəticəsində 80 nəfər ölüb. Yanacaqdoldurma məntəqəsində partlayışı intiharçı törədib. Hadisə zamanı 32 adam xəsarət alıb. Bu məntəqə Bağdadın 120 kilometrliyində yerləşir. İrandan Kərbəlaya gedən iranlı zəvvarlar adətən bu məntəqə yaxınlığındakı restoranda dayanırlar. Həmin hücumu məsuliyyətini də İŞİD öz üzərinə götürmüşdü. Bu arada bildirək ki, Türkiyə Hərbi Hava Qüvvələri "Fərat qalxanı" əməliyyatları çərçivəsində Suriyanın şimalında İŞİD-in 12 terrorçusunu məhv edib. Bu barədə Anadolu agentliyi xəbər verir. "Fərat qalxanı" əməliyyatı bu ilin avqust ayının 24-dən aparılır. **amerikaninsesi.org**

## "Haşd əş-Şaabi" könüllüləri Mosulu tam əhatəyə alaraq, İŞİD-in təchizat yollarını kəsiblər



"Haşd əş-Şaabi" könüllüləri İraqın Mosul şəhərini mühasirəyə alaraq, İŞİD terrorçularının Suriya ərazisi ilə təchizat yollarını tam kəsiblər. Bu barədə jurnalistlərə könüllülər təşkilatının komandanlığından məlumat verilib. Şiə könüllülər Təll-Əfrir-Sincar avtomobil yolunu bağlayıb, Mosulun mühasirəsini tam şəkildə təmin edib və "Peşmərgə" kürd dəstələri ilə görüşüblər. **SalamNews**

# Türkiyə suriyalı kürd siyasi liderin həbsini istəyir

Bu il 17 fevralda Ankarada baş vermiş hücumla bağlı aparılan istintaq çərçivəsində suriyalı kürd PYD lideri Salih Müslim və bir neçə Kürdüstan Fəhlə Partiyası (PKK) liderləri barədə həbs qərarı çıxarılıb.

Həbs qərarında suriyalı Kürd Demokratik Birlik Partiyası (PYD) lideri Salih Müslim və 50-yə yaxın şəxsin adı çəkilib.

PYD, Suriyada özünü İslam Dövləti (İD) adlandıran qrupa qarşı mübarizədə ABŞ tərəfindən dəstəklənən Xalq Qoruma Birlikləri (YPG) kürd silahlı birləşməsi ilə bağlıdır.

Salih Müslim, BBC Fars xidmətinin jurnalisti Jiyar Gol ilə müsahibədə, Türkiyənin Suriyada keçirdiyi hərbi əməliyyatı "yeni Türk imperiyası" qurmaq üçün həyata keçirdiyini iddia edib.

Türkiyə PYD və YPG-ni bu ilin fevral ayında Ankarada baş vermiş hücumu təşkil etməkdə günahlandırır, amma hər iki qrup bu iddiaları rədd edib.

ABŞ-ın Türkiyənin iddialarına şübhə ilə yanaşması və PKK ilə YPG-nin Suriyada oynadığı rol üzrə fikir ayrılığı nəticəsində Washington və Ankara münasibətləri zədələnib.

Türkiyə uzun zamandır ki, suriyalı kürd silahlı qruplarının PKK ilə əlaqəsi olduğunu israr edir.

Amma Salih Müslim Türkiyənin terror ittihamlarını rədd edib və PYD-PKK əlaqəsinin mövcud olmadığını vurğulayıb. "Türkiyə kürd xalqı üçün demokratiya istəyən hamını



terrorla günahlandırır. Bunun da ən sadə yolu "onların PKK ilə əlaqəsi var" deməkdir", o BBC-ə bildirib. Ankarada 17 fevralda baş vermiş hücuma görə məsuliyyəti Türkiyədə yerləşmiş kürd silahlı qrup, Kürdüstan Azadlıq Şahinləri (TAK) götürüb TAK keçmişdə PKK ilə bağlı olub. Hər iki qrup ABŞ və Türkiyə tərəfindən terror təşkilatları kimi qiymətləndirilib. **bbc.com**

# BMT: Mosul uğrunda döyüşlər nəticəsində iraqlılar kütləvi şəkildə şəhəri tərk edir



BMT bildirib ki, Mosul şəhərinin nəzarətinin İŞİD qrupundan geri alınması uğrunda aparılan əməliyyatlar nəticəsində evlərindən didərgin düşən iraqlıların sayı tədricən artır.

İraq təhlükəsizlik qüvvələrinin şəhərin azad edilməsi uğrunda apardığı döyüşlər bir aydan çoxdur davam edir. Kürd və şiə yarı-hərbi dəstələrinin döyüşçüləri şəhərin ətrafından mərkəzə doğru irəliləyir. İraqın ikinci ən böyük şəhəri olan Mosulun nəzarəti ikinci ildir İŞİD-in əlindədir.

BMT-nin humanitar yardım ofisinin açıqladığı son bəyanatda 68 min 550 nəfərin evlərindən didərgin düşdüyü deyilir. Onların 14 mini ötən həftə məcburi köçkün vəziyyətinə düşüb. Bəyanatda döyüşlərin Mosulun daha sıx məskunlaşmış yerlərinə çatması ilə şəhərdən kütləvi şəkildə axının ola biləcəyi barədə xəbərdarlıq edilir.

İraqın Qırmızı Xaç cəmiyyəti evlərindən didərgin düşənlərin ümumi sayının 85 mindən çox olduğunu bildirib.

Hər iki təşkilat ehtiyacı olanlara ərzaq və tibbi yardımın çatdırılması üçün mümkün hər bir şeyi etdiklərini bildirib.

BMT Mosulun daxilində snayperlərin mülki vətəndaşları hədəf aldığını bildirib. **amerikaninsesi.org**

# ABŞ YPG-ni silahlandırır, Ankara gərgin durumda…

Amerika 15 gündür ki, Türkiyəyə "Fərat qalxanı" əməliyyatında dəstək vermir. Axar.az xəbər verir ki, bu barədə informasiyanı Türkiyənin "Sözcü" qəzeti özünün etibarlı mənbəsinə istinadən yayıb. Mənbənin sözlərinə görə, hazırda ABŞ PKK-nın Suriya qolu olan YPG-yə geniş dəstək verməyə başlayıb:

"Türkiyədən başqa Suriyanın ərazi bütövlüyünü istəyən ölkə yoxdur. ABŞ bölgədə kürd dövlətini qurmaq planından əl çəkməyib. YPG-nin liderlərindən biri yaxalandıqdan sonra verdiyi ifadə də ABŞ-ın kürd dövləti qurmaq üçün onlara hər cür dəstəyi verdiyini bildirib. O, istintaqa verdiyi ifadəsinin başqa bir yerində ABŞ-ın Suriyadakı kürdlərə İraq vasitəsilə 100 TIR-lıq silah göndərdiyini etiraf edir. Vaşinqton Menbiçdəki kürdləri vurmağımızı istəmir. Hazırda Amerika ilə bərabər, Fransanın da xüsusi təyinatlıları Menbiçdə qərarlaşıblar. Menbiçə 3 min nəfər YPG döyüşçüsü gətirilib. Suriya Yaxın Şərq bataqlığıdır. Burada kimin kimlə savaşdığı müəyyən edilə bilmir. Rusiya da, ABŞ da YPG-ni vurmağımızı istəmir. Ən maraqlı məqam odur ki,



Suriya hakimiyyəti də YPG-ni vurmağımıza qarşıdır. Elə bu üç ölkə də YPG-ni müdafiə edir. ABŞ YPG-ni istiqamətləndirir. Hətta kürd döyüşçülərə 5 min dollar maaş da verilir. Bizim məqsədimiz isə kürdlərin qərbə irəliləməsinin qarşısını almaqdır. Ankara hazırda ağır vəziyyətdədir". **musavat.com**

# Suriyada 3 Türkiyə hərbçisi həlak olub



Türkiyə ordusu Suriya ordusu qüvvələrinin bu ölkə ərazisində türk hərbçilərinə hücumunda üç hərbçinin öldüyünü və 10 hərbçinin də yaralandığını iddia edib.

İRNA-nın məlumatına görə, Türkiyə ordusu cümə axşamı günü bir bəyanatda iddia edib ki, Suriya hökumət qüvvələri tərəfindən çərşənbə gecə həyata keçirilən hava hücumunda üç türk hərbçisi həlak olub və on nəfər də yaralanıb. Bu bəyanatda əlavə olunub: Türkiyə ordusunun yaralı hərbçiləri dərhal hadisə yerindən təxliyə olunub.

Bu ilk dəfədir ki, Fərat Qalxanı adlanan əməliyyatda Türkiyə hərbçilərinin Suriya dövlət qüvvələrinin hücumunda öldürülməsi bildirilir. Türkiyə hərbçiləri 24 avqustdan Fərat Qalxanı əməliyyatı çərçivəsində Suriyadadırlar.

Türkiyə ABŞ-ın birbaşa dəstəyi ilə İŞİD-lə mübarizə, cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək və "Azad Ordu" terrorçularına dəstək iddiası məqsədilə Suriyanın şimalına təcavüzkar əməliyyata başlayıb. Lakin həmin vaxtdan daha çox kürd qüvvələrini hücumlara məruz qoyub. Amerikalıların etirafına görə, həmin qüvvələr Suriyanın şimalında İŞİD terrorçuları ilə mübarizədə ən təsirli qrup hesab olunurlar. **azeri.sahartv.ir**

# “Azərbaycan Kürdləri” ictimai birliyinin liderindən çağırış

***Tahir Süleyman: “Türkiyədə hər iki tərəf mütləq barışıq yollarını aramalıdırlar, təcili barmaqlar tətikdən götürülməlidir və danışıq masası arxasında əyləşilməlidir”***

**“Qardaş Türkiyədə baş verənlər, xüsusən insan itkiləri və 12 kürd şəhərlərinin dağıdılması ilə nəticələnən hadisələr bir Azərbaycan kürdü kimi məni də çox narahat edir”.**

Bu barədə “Yeni Müsavat”a açıqlamasında “Azərbaycan Kürdləri” İctimai Birliyinin sədri, Azərbaycanda kürd dilində çap edilən “Diplomat” qəzetinin baş redaktoru Tahir Süleyman bildirib. Onun sözlərinə görə, AKP hakimiyyəti 2015-ci ilin əvvəlinədək 10 ildən artıq müddətdə kürd məsələsi ilə bağlı çox düzgün, dövlətə, orada yaşayan bütün millətlərə xidmət edən siyasət yürüdürdü: “Müsbət nəticə isə ortadaydı -Türkiyədə sabitlik idi, güllə, partlayış səsləri eşidilmirdi, insanlar həlak olmurdu, ölkənin iqtisadiyyatı inkişaf edirdi. Təəssüflər olsun ki, 2015-ci ilin ikinci yarısından bu düzgün siyasət birdən-birə mənfiyə doğru dəyişdi. Son bir ildən artıqdır yürüdülən siyasətin də nəticələri ortadadır. Belə ki, bu bir il ərzində 12 böyük kürd şəhərləri dağıdılıb, kürd televiziyası və mətbuatı kütləvi şəkildə bağladılıb, xalq tərəfindən seçilən millət vəkilləri həbs olunub, dic əhali kütləvi şəkildə öldürülüb xalq pərişan şəkildə doğma yurdlarından köçkün düşüblər. Bu hadisələrdən hiddətlənən bu şəhərlərin gəncləri kütləvi şəkildə PKK-ya, YPG-yə və başqa siyasi qurumlara axın edirlər. Bu da xalqın AKP hökumətinə inamsızlığından, etibarsızlığından irəli gəlir. Ölkə vətəndaş müharibəsi astanasına gətirilir. Çox təəssüflər olsun ki, bu dəfə müsbət nəticələrdən yox, ağır, acı nəticələrdən söz açmağa məcburuq. Sabitlik azqala hər gün Türkiyənin müxtəlif şəhərlərində partlayışlarla, atışmalarla, ölümlərlə, iqtisadi inkişaf isə iqtisadiyyatda geriləmə ilə əvəzlənib”.

T.Süleyman hesab edir ki, qardaş Türkiyə dövlətinin inkişafını istəməyən, Avropanın girişində nəhəng, güclü müsəlman ölkəsinin olmasını həzm edə bilməyən Avropa dövlətləri, dünya gücləri Türkiyəni sarsıtmaq üçün böyük planlarını işə salıblar. Həmin planların bir hissəsi də bu ölkədə



türklərlə kürdlərin tarixə söykənən qardaşlığını tamamilə məhv etmək, barışmaz düşmənçiliyə çevirməkdir: “Təəssüf ki, bu, açıq-aydın göründüyü halda Türkiyə hakimiyyəti, Ərdoğan bir ildən artıqdır münasibətləri gərginləşdirmək xəttini götürüb. Belə ki, Türkiyənin Kürdüstan bölgəsindən Çanaqqala savaşı dövründə kürd xalqı dəvəsi ilə, atı ilə, əlində olan silahla düşmənə qarşı mübarizəyə qalxdı. Və Türkiyə cumhiriyyətinin yaranmasında öz rolunu oynadı. Çox təəssüflər olsun ki, AKP hökuməti tankla, topla Türkiyəni yadelli işğalçılardan xilas edən kürd xalqının yaşadıqları əraziləri bombarduman edir. Belə olmaz. Bu siyasət Türkiyəni xaosa apara bilər.



Artıq Avropa Parlamenti Türkiyə ilə danışıqları dayandırdı. Avstriya Türkiyəyə qarşı bəzi sanksiyalar qərarı verib. Bu cür qərarlar verəcək dövlətlərin sayı arta bilər. Bütün bunlar bir tərəfdən yuxarıda dediyim Türkiyəni sarsıtmaq planının tərkib hissəsidirsə, bir tərəfdən də Türkiyə iqtidarının kürdlərlə bağlı sərt siyasi xəttə keçməsinə cavabdır. Gərək Türkiyə iqtidarı elə şərait yaratmayaydı ki, Türkiyəni zəifləmək istəyən xarici güclərin əlinə fürsət düşsün. Ərdoğan iqtidarı 2015-ci ilə qədər yürütdüyü barışıq siyasətini davam etdirsəydi Türkiyədə bugünkü hadisələr baş verməzdi”.

T.Süleyman qeyd etdi ki, Ərdoğan baş nazir olduğu illərdə hökumət açılım siyasəti, barışıq siyasəti yürüdürdü. Bu siyasətə uyğun olaraq da hökumət Türkiyə Millət Məclisinin bir neçə HDP-li üzvlərini müxtəlif vaxtlarda İmralı-



da həbsdə saxlanan Abdulla Öcalanla, Qəndildəki PKK liderləri ilə görüşmək üçün göndərirdi. Çox da düzgün addım idi: “Problemi danışıqlar yolu, sülh yolu həll etmək istiqamətində atılan düzgün addımlar idi. Həmin deputatlar, o cümlədən HDP həmsədri Səlahəddin Dəmirtaş nə Öcalanla, nə də Qəndildəki PKK liderləri ilə görüşə özbaşına getmirdilər. Onları Türkiyə dövləti, hakimiyyət göndərirdi. İndi Səlahəddin Dəmirtaş başda olmaqla həmin deputatların bir çoxunu “terrorçularla görüşüblər, onlarla müzakirə aparıblar, qolboyun olub şəkil çəkdiriblər”-deyərək həbs edirlər. Bax bu cür başa düşülməyən siyasətin nəticəsində milyonlarla insanı vətəndaşı olduğu dövlətdən narazı salırlar. Zərərini dövlət, günahsız insanlar çəkir. HDP-yə seçkidə 4 milyon seçici səs vermişdi. 4 milyon vətəndaşı narazı salmağa ehtiyac yox idi. Təəssüf ki, artıq ox yaydan çıxıb. Buna baxmayaraq hər iki tərəf mütləq barışıq yollarını aramalıdırlar, barmaqlar tətikdən götürülməlidir və danışıq masası arxasında əyləşilməlidir. Bundan sonra anlaşma, barışıq yolunu tapmaq mümkün olar. İnanın ki, kürdlərə mədəni muxtariyyət verilsəydi bundan Türkiyə dövləti qazanardı, Türkiyə bundan itirməzdi. Türkiyənin daha ağır fəlakətlərlə üz-üzə qalmasını biz arzulamırıq”.

***Etibar SEYİDAĞA***

## Suriya ordusu qüvvələri Türkiyə sərhədlərinə yaxınlaşıblar

Terrorçular Hələb şəhərindən çıxmasınlar.

Əl-Məyadin televiziyası Suriya ordusunun müştərək əməliyyat otağındakı bir hərbi rəsmiyə istinadla bildirib ki, Səudiyyə Ərəbistanı, Amerika və Türkiyə Ceyşül-Fəthdən istəyiblər ki, Hələb şəhərinin şərqindən çıxmasınlar, üstəlik özlərini yeni hərbi əməliyyata hazırlasınlar. Suriya ordusu öz irəliləməsinin davamında Türkiyə sərhədinə yaxınlaşıb ki, terrorçuların tədarük yollarını bağlasın.

Suriya ordusu qüvvələri Türkiyə sərhədləri yaxınlığına qədər irəliləyiblər. Terrorçular ötən 24 saat ərzində Hələbin şərq və qərb istiqamətlərində Suriya müqavimətindən ağır zərbələr alıblar.

Bu arada ordu diqqətini Hələbin şimal-şərqinə yönəltmişdir. Türkiyə sərhədləri yaxınlığındakı bölgəyə. Hələbin şimal-şərqində Cubər məntəqəsində İŞİD ünsürləri ilə məsafə təxminən 10 kilometrdir.

Suriya ordusunun hərbçisi deyib: Allahın lütfü ilə yaxın gələcəkdə əl-Bab şəhərinin azadlığı ilə bağlı yaxşı xəbərlər eşidəcəyik. Və terrorçuları sərhədlərin o tərəfinə qədər təqib edəcəyik. Suriya ordusunun irəliləməsi ilə Cubər, Sifat, Muşat mədrəsəsi, Təllüş-Şəir və Təllüs-Susin və onun 25 kəndinin ərazisindən 130 kilometr azad olunub.

Suriya ordusunun hərbçisi deyib: Terrorçular, əsasən də onların müttəfiqləri bilməlidirlər ki, Suriya xalqı və ordusuna məğlub olublar. Hazırda Suriya ordusu və xalq qüvvələrinin terrorçuların lojistik aort damarını kəsməyə sadəcə 30 kilometr məsafələri vardır. Suriyanın şimal-şərq sərhədlərində bu ölkə bayrağının dalğalandırılması separatçı siyasətlərin üzərindən qırmızı xəttin çəkilməsi deməkdir. ***azeri.sahartv.ir***

## Adana partlayışında yaralıların sayı 33-ə çatdı

Türkiyənin Suriya ilə sərhədi yaxınlığında yerləşən Adana şəhərində valiliyin avtomobil parkında baş verən partlayışda 2 nəfər həlak olub, 33 nəfər yaralanıb. Adana valisi Mahmud Dəmirtaş yerli vaxtla saat səkkiz radələrində



valiliyin açıq avtomobil dayanacağında valiliyə girişin yaxınlığında bomba quraşdırılmış bir avtomobilin partladıldığını və hadisəni bir qadının törətdiyinin ehtimal olunduğunu bildirib.

Dəmirtaş hadisədə həlak olan iki şəxsin kimliyinin müəyyənləşdiyini və yaralıların sayının 33 nəfərə çatdığını diqqətə çatdırıb. İlkin məlumatlara görə, terrorçular öncədən gətirdikləri bomba yüklü avtomobili valilikdə keçiriləcək tədbir zamanı partlatmağa cəhd ediblər. Partlayış zamanı dayanacaqdakı avtomobillər yanmağa başlayıb və valilik və ətrafdakı binaların şüşələri qırılıb. Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayraq Adana valisi Mahmud Dəmirtaşın partlayışdan bir neçə dəqiqə öncə xilas olduğunu diqqətə çəkib. Hələlik bir şəxs və yaxud bir qrup bu partlayışın məsuliyyətini üzərinə götürməyib. Lakin Türkyə hökuməti adətən belə vəziyyətlərdə PKK-nın hadisənin səbəbkarı hesab edir. Türkiyənin Avropa Birliyi məsələləri üzrə naziri Ömər Çəlik twitter səhifəsində bu partlayışı "utandırıcı hücum" adlandırıb.

Adana şəhəri İncirlik hərbi hava bazasının təxminən 16 kilometrliyində yerləşir. Amerikanın rəhbərlik etdiyi koalisiyanın qırıcı təyyarələri Suriyada əməliyyat keçirmək üçün bu bazadan istifadə edirlər. Amerika təxminən 8 ay öncə təhlükəsizliyi səbəbi ilə Adanada yerləşən amerikalı hərbçilərin ailələrinə göstəriş verib ki, bu şəhər və Türkiyə ərazisinin digər yerlərini tərk etsinlər. Amerikanın Adanadakı baş konsulu təxminən üç həftə öncə xəbərdarlıq edib ki, radikal qruplar Birləşmiş Ştatlar və bu şəhərdəki digər xarici ölkələrin vətəndaşlarına hücum etməyə çalışırlar. ABŞ Dövlət Departamenti də öz vətəndaşlarına Türkiyənin cənub-şərqinə səfər etməməyi tövsiyə edib. ***azeri.sahartv.ir***

# “Kәlbәcәr tәhsili Cәfәr müәllimin, “Qara Bәhmәn”in adı ilә bağı idi”

***“İndi әsl müәllim çox azdır” ifadәsini az qala hәr kәs işlәdir. Hәtta sovet dövrünü görmәyәnlәr belә, az qala o illәrin müәllimlәrinin intizarındadırlar.***

***Bütövlükdә cәmiyyәt az qala yaxşı müәllim axtarışına çıxıb.***

***Müsahibimiz mәhz axtarışında olduğumuz o müәllimlәrdәn biri, uzun illәr Kәlbәcәr rayonunda tәhsilә rәhbәrlik etmiş, indi kәlbәcәrlilәrin tәpәdәn dırnağadәk hәr birinin böyük ehtiramla yanaşdığı Әli Kazımovdur.***

***O Әli Kazımov ki, müәllim işlәdiyi müddәtdә rayon rәhbәrlәrinin uşaqlarını belә, әn ağır metodlarla cәzalandırmaqdan çәkinmәyib, mәktәblilәrә kimin övldı olduğuna görә heç bir fәrq qoymayıb.***

***O Әli Kazımov ki, uşaqlıq illәri üçün qәribsәyәnlәr, orta mәktәb illәri üçün burunlarının ucu göynәyәnlәrin, Kәlbәcәr barәdә bilmәdiklәrini eşitmәk istәyәnlәrin rahatlıq tapacağı ünvandır. Kәsәsi, Kәlbәcәrin canlı ensiklopediyasıdır bu KİŞİ! Modern.az saytı Әli Kazımovla söhbәti tәqdim edir:***

**- Әli müәllim, öncә ondan başlayaq ki, 50 il әvvәlki müәllimlәrlә indiki müәllimlәr arasında hansı oxşarlıq, fәrq görürsünüz?**

- Әvvәla onu deyim ki, әvvәllәr müәllimlәrin sayı çox az idi. Elә müәllimlәr var idi ki, kadr çatışmazlığına görә bir neçә fәnni tәdris edirdi. Amma onlarda olan hәvәs, müәllim sәnәtinә ürәk yanğısı, müәllimliyә maraq indiki müәllimlәrin 99 faizindә yoxdur. Çünki әvvәlki müәllimlәr sinif otağına hazırlıqsız daxil olduğu halda valideyn dә, rәhbәrlik dә işә qarışırdı. Buna görә, o müәllim hazırlıqsız heç zaman sinfә girmәzdi. Müәllimlәr düşünürdü ki, millәt üçün, xalq üçün tәhsilin keyfiyyәtini artırmaq lazımdır. Hәmçinin, bu mәqamda müәllimlәrin yaşayış sәviyyәsini dә nәzәrә almaq lazımdır. O zaman әn yaxşı yaşayanlar rәhbәr vәzifәdә olanlar – kolxoz sәdrlәri, sovet sәdrlәri, idarә rәhbәrlәrivә müәllimlәr idi. Çünki müәllimlәr hәm әmәk haqqı alırdı, hәm dә tәsәrrüfatla mәşğul ola bilirdi. Kәnd vә ya rayon şәraitindә yaşamasından asılı olmayaraq, әn yaxşı yaşayanlar müәllimlәr idi. Bunag örә dә әhali arasında müәllimlәrin hörmәti dә yüksәk idi. Oxumağa gәldikdә o zamankı uşaqların oxumaq istәyi, bilik qavramaq qabiliyyәti indikilәrdәn yaxşı idi. Çünki indiki uşaqlar kimi onların beynlәri lazımsız informasiyalarla yüklәnmirdi. Uşaqlar televiziya, kompüter, mobil telefondan informasiya yığmırdı. Onlar müәllimlәrin verdiyi informasiyaya ehtiyac duyurdu vә ondan bәhrәlәnirdi. İndi isә müәllim danışanda uşaq qulaq asmır vә deyir ki, bunu televiziyadan, internetdәn eşidib. İndiki mәktәblilәrin çoxu elә bilir ki, hәr şeyi bilirlәr. Tәәssüf ki, bu, doğru yanaşma deyil. O zaman elә bil verilәn bilik uşaqların beyninә möhürlәnirdi.

**- Hәm dә sanki Kәlbәcәrdә әhalinin müәllimlәrә olan münasibәti, müәllimlәrin hörmәti ölkәnin digәr әrazilәrindә olduğundan fәrqli idi…**

- O zamanlar aran rayonlarında vә şәhәrlәrdә müәllimlәrin sayı çox idi. Aranda elә kәnd var idi ki, orada 5-6 müәllim çalışırdı. Amma Kәlbәcәrdә hәr kәnddә 1-2 müәllim olurdu. Sayı az olduğuna görә onların hörmәti çox idi. Müәllimlәr qәzet alıb oxuyur, әhalinin informasiya tәminatını ödәyirdi. Hәtta başqa rayonlardan tәyinatla Kәlbәcәrә gәlәn müәllimlәrә әhali öz evindә yer verir, bacardıqları kömәyi



edirdilәr ki, onlar da bunun qarşılığında uşaqlara tәhsil versinlәr. Sonradan müәllimlәrin sayı artdıqca Kәlbәcәrdә dә bu sahәdә müәyyәn soyuqluq yaranırdı. Birinci Yanşaq, Qılınclı, Başlıbel, Çaykәnd kәndlәrindә vә Kәlbәcәrin rayon mәrkәzindә orta mәktәb olub. Hәtta elә kәndlәr var idi ki, insanlar öz uşaqlarına o müәllimlәrin adını verirdi. Hәmçinin müәllimin araq içdiyini, toyda oynadığın görmәzdik. Müәllimlәr dә özlәrini müәllim kimi aparardı. İndi müәllimlәr şagirdi göndәrir ki, get, mәnә bir araq al gәtir.

**- Maraqlıdır, Kәlbәcәrdә müәllim simvolu kimi qәbul edilәn Әli Kazımov ilk müәllimini necә xatırlayır?**

- İbtidai sinifdә ilk müәllimim Kazımov Seyfәli Muxtar oğlu olub, O, hәm dә әmim oğlu idi. Amma ona bir dәfә olsun әmioğlu kimi baxa bilmәdim, müәllim kimi hörmәt edirdim. Sonra Sәfiyar müәllim gәldi. O, riyaziyyatçı idi vә mәnә riyaziyyatı sevdirәnlәrdәn biri dә o idi. Sonradan mәn Qaraçanlı kәndindәn Kәlbәcәr şәhәrinә gәlәrәk 1 saylı mәktәbdә oxudum. Mәktәbin direktoru rәhmәtlik Cәfәr müәllim idi. Әslәn Laçından olan Cәfәr müәllimin Kәlbәcәrin ziyalılaşmasında müstәsna xidmәti olub. O әvvәl Yanşaq kәndindә işlәyib, özü dә Әdil bәyin evini mәktәbә çevirәrәrk orada dәrs deyib. Daha sonra Seyidlәr kәndinә gedәrәk mәktәb tikdirib. Oradan Zar kәndinә gedәrәk 7 illik mәktәb tәşkil edib. Sonradan onu da orta mәktәbә çevirib gәlib Kәlbәcәrә. Mәn Kәlbәcәr mәktәbinә gәlәndә Cәfәr müәllim direktor idi. Onun atası çox varlı olmuşdu. Cәfәr müәllimin Koroğlunun bığları kimi eşmә bığları var idi. XVII -XVIII әsr әdәbiyyatın da gözәl bilirdi. İllәr keçdi, Cәfәr müәllim qocaldı, amma şagirdlәrә bilik vermәk sevgisi azalmadı. Daha sonra Bәhmәn (Cәfәrov) müәllim direktor oldu. O zaman Azәrbaycan Pedaqoji İnstitutunda “Qara Bәhrәm” adlı bir müәllim var idi. Deyirdilәr ki, Bakıda “Qara Bәhrәm”dir, Kәlbәcәrdә “Qara Bәhmәn”. Bәhmәn müәllim o zaman 5 illik ali mәktәbi 2 ilә bitirmişdi. Hәddindәn artıq savadlı idi. Onun zәhmindәn şagirdin dәrsi öyrәnmәmәsi mümkün deyildi. Mәktәbi qurtaranların әksәriyyәti Bәhmәn müәllimin tәdrisi hesabına texniki sahәlәrә gedәrәk ali tәhsil alırdılar.

Kәlbәcәrdә dә әn güclü, savadlı uşaqlar Başlıbel, Yanşaq, Ağcakәnd, Çaykәnd mәktәbindәn çıxırdı. Sonra isә digәr mәktәblәr gәlirdi. Özü dә o kәndlәrdә insanlar rәqabәtdә idi. Filankәsin uşağı ali mәktәbә girdi, gәrәk mәn dә girәm vә s.

O dövrdә müәllim savadlı, bilikli insan demәk idi. Uşaqlar valideynlәrini necә sevirdisә, müәllimlәrini dә elә sevirdi. Cәfәr müәllimin öz oğlu da bizimlә bir sinifdә oxuyurdu. İnanın Cәfәr müәllim öz uşağından çox digәr şagirdlәrә diqqәt yetirirdi. Bunun nәticәsi idi ki, bizim sinifdәn 9 nәfәrә qızıl medal verdilәr. Onların arasında Mәmmәd Aslan, Әnvәr Rza da var idi. Medal alan şәxslәrdәn biri dә Mәmmәd Aslan idi. Amma Mәmmәd Aslanın medalın әvvәlcә vermәk istәmirdilәr. Buna görә Mәmmәd Aslan gәldi o zamankı tәhsil naziri Mehdi müәllimin qәbuluna. Mehdi müәllim dә әsl pedaqoq idi. Amma onun medalın tәsdiq etmir. Mәmmәd otaqdan çıxıb katibәdәn bir kağız alıb nәsә yazmağa başlayır. Bir qәdәr sonra nazirin yanında onun cavabın müzakirә edirlәr vә nazir katibәni çağırıb soruşur ki, içәridәn çıxan oğlan hara getdi? Katibә dә cavab verir ki, qәlәm- kağız götürüb nәsә yazır. Deyirlәr ki, onu bir dә çağırın içәri. Mәmmәd Aslan isә cavab verir ki, әlindәki yazını bitirib gәlir. İçәri keçәndә Mәmmәdә deyirlәr ki, nә yazıbpozursan, cavan oğlansan, nә demaqoqluğa başlayırsan? Mәmmәd dә cavab verir ki, demaqoqluq etmir, dәrdini şeirlә yazıb. Mәmmәd özü hәmin vaxt yazdığı seiri unutmuşdu. Sonradan mәn yadına salanda dedi kitabların birinә salacaq bunu.

Nәsә, nazir şeiri eşidәndәn sonra Mәmmәdә deyir ki, bunun üzün köçür ver bizә. Mәmmәd dә hәmin şeirin surәtini çıxarıb verir onlara. Ondan sonra Mәmmәdin dә medalını verirlәr. Amma sonradan institutun birinci smestrindә medal alanlardan bәzilәri aşağı qiymәt almışdı. O zaman mәqalә yazılmışdı ki, medallar layiq olanlara verilsin. Mәni dә misal çәkmişdilәr ki, rus dilindәn “3” qiymәt alan adam ali mәktәbә qәbul imtananında “5” alıb. Çünki o zamanlar da mәn yay vaxtlarında Tolik adlı bir rus sürücü vardı, onun yanında işlәyib hәm әmәk haqqı alırdım, hәm dә dil öyrәnirdim. Mәn 7-ci sinfi bitirәndә ali mәktәbә gedәn uşaqlardan bәzilәri institutdan kәsilmişdi vә deyirdilәr ki imtahanlar çәtindir. Fikirlәşdim ki, yәqin mәn dә instituta girә bilmәyәcәm. Elә yaxşısı budur mәktәbdәn çıxıb Tolikdәn sürücülük öyrәnim. Artıq yay bitmiş, dәrslәr başlamışdı. Mәn dә mәktәbә getmirdim, elә sürücülük edirdim. Bir dәfә maşınla keçәndә gördüm ki, Cәfәr müәllim әlindә zәnbil bazardan gәlir. Maşını saxladım ki, gәlin, sizi evinizә aparım. Maşınla Cәfәr müәllimi evinә gәtirәndәn sonra qapıda mәni saxladı ki, sәnin yaxşı gәlәcәyin var, gәl, oxu. Mәn әvvәl etiraz etsәm dә, sonra müәllimimlә razılaşdım. Sәhәrisi Tolikә dedim ki, daha işә gәlmәyәcәm, mәktәbә gedәcәm. Axşam gördüm ki, Tolik bir mәktәbli çantası, içәrisindә kitablar, yemәk-içmәk alıb gәlib. O vaxtdan başladım oxumağa.

**- Kәlbәcәrdә ilk mәktәb nә zaman açılıb, bunun tarixini bilirsinizmi?**

- Kәlbәcәrdә ilk dәfә rus-tatar mәktәbi fәaliyyәt göstәrib. Orada ilk tәhsil alanlardan biri “Qara Bәhmәn”in atası idi. O da hardasa 1915-1920-ci illәrә tәsadüf edir. Mirzә Nәsir dә orada oxuyub. Sonradan o Beriya ilә dә birlikdә tәhsil almışdı. Kәlbәcәrdә ilk orta mәktәb 1936-cı ildә tikilib. Mәktәbin binası üçün ağaclar, daşlar öküzlә, atla gәtirilib.

**- Kәlbәcәrlilәr hәm dә kәnardan gәlәn müәllimlәrә daha çox hörmәt edirdi. Bu, kәlbәcәrlilәrin yaxşı әlamәti idi, ya pis?**

